https://doi.org/10.59849/3006-1342.2025.1.72
UOT 94(479.24).
*İlahə Arif qızı Əsədzadə*
*Kiçik elmi işçi*
*AMEA Gəncə Bölməsi*
*Gəncə ş., Heydər Əliyev pr. 419*
*E-mail: ilahe.esedzade@gmail.com*
*https://orcid.org/0009-0007-1288-3719*

# QARABAĞIN "XƏMSƏ" MƏLİKLİKLƏRİ: ERMƏNİ SAXTAKARLIĞININ NÖVBƏTİ HƏDƏFİ

*Məqalədə Qarabağ xanlığının meydana gəlmə şəraiti, xanlığın ərazisində ermənilərin yerləşdirilməsi və Qarabağda fəaliyyət göstərən məliklərin mənşəyi araşdırılmışdır. Həmçinin rəsmi sənədlərdə də daima özlərini "alban" adlandıran xristian məlikliklərinin soykökünün erməni tarixçiləri tərəfindən təhrif edilməsi, tarixi mənbələri belə öz xeyirlərinə dəyişərək uydurma fikirlər yaratmaları kimi məsələlərə toxunulmuşdur.*

*Açar sözlər:* Qarabağ xanlığı, "Xəmsə" məlikləri, xristian-alban məliklikləri, erməniləşdirilmə, erməni saxtakarlığı

## *Giriş*

XVIII əsrin 30-cu illərinin ortalarında Səfəvilər dövlətinin varlığına son qoyaraq hakimiyyəti ələ keçirmək istəyən görkəmli Azərbaycan-türk sərkərdəsi Nadir xan Əfşarın çağırdığı qurultayda onun şah elan olunması üçün əvvəlcədən zəruri tədbirlər görülmüşdü. Lakin 1736-cı ildə Muğanda keçirilən tacqoyma mərasimində Qarabağın ziyadoğlu, iyirmidörd, otuzikilər, Cavanşir və başqa tayfaları Nadirqulu xanın namizədliyinin əleyhinə olduqlarını bildirərək, taxta yalnız Səfəvilər nəslinin nümayəndəsinin çıxa biləcəyi barədə təkid etdilər. Məhz bu səbəbdən də Nadir şah taxtına oturduqdan sonra onları cəzalandırmağı qərara aldı. Ona qarşı çıxmış bütün tayfaları Xorasan vilayətinə və Əfqanıstanın sərhədlərinə sürgün etdirdi. Həmçinin, özünə qarşı yarana biləcək güclü müqaviməti öncədən parçalamaq istəyən Nadir şah Qarabağın beş alban-xristian məliklərinin birbaşa şaha tabe olmaları barədə əmr verdi [2, s.248].

*1.Qarabağ xanlığının meydana gəlməsi.*

1747-ci ildə Nadir şahın öldürülməsindən sonra Xorasandan Qarabağa qayıdan elat əsilzadələri içərisində ən nüfuzlu şəxslərdən biri, görkəmli dövlət xadimi və sərkərdə olan Pənahəli bəy Qarabağda hakimiyyətini möhkəmləndirərək olduqca çətin tarixi şəraitdə, Azərbaycanın quzeyində "Qarabağ" adlı yeni bir xanlığın əsasını qoyur. Pənahəli bəyin əsl-nəsəbinin mənsub olduğu Dizaxın Cavanşir eli qədim zamanlarda Türküstandan gəlmiş Bəhmənli soyunun bir qolu olan Sarıcalı oymağına aid idi [6, s.110]. Qarabağ xanlığının - müstəqil dövlətin rəhbəri kimi bütün göstəriciləri özündə birləşdirən Pənah xan, ətrafdakı xanların hücumlarından ehtiyat edərək xanlığın ərazisində, münasib bir yerdə qala tikilməsini lazım bilmişdi. Beləliklə, məşvərətdən sonra, indiki Kəbirli mahalı ərazisində yerləşən Bayat qalasının əsası qoyuldu (1748).

Pənahəli xan bir müddət Bayat qalasını xanlığın mərkəzi kimi saxlasa da, bir sıra hadisələr, xüsusilə 1748-ci ildə Şəki xanlığı ilə baş vermiş "Bayat savaşı" qalanın yerinin strateji baxımdan o qədər də əlverişli olmadığını göstərdi. Xanın müşavirləri olan əyan-əşrəfin məsləhəti ilə Bayat qalası tərk edildi. "Şahbulaq" adı ilə məşhur olan Tərnəküt qalasının

tikintisinə başlandı. 1749-cu ildə elat camaatının bütün evləri Şahbulaq qalasına köçürüldü [4, s.69].

Azərbaycanda baş verən hadisələr, davam edən qanlı feodal ara müharibələri şəraitində Şahbulaq qalası da etibarlı sığınacaq olmadı. Pənahəli xanın çağırdığı məsləhət şurası yeni qalanın salınması barədə qəti fikrə gəldi. Saray əyanlarından bir qrup şəxs xana dəniz səviyyəsindən 1800-2000 metr hündürlükdə yerləşən və üç tərəfdən təbii müdafiəsi olan – bir tərəfdən meşələrlə, bir tərəfdən uçurum, digər tərəfdən isə sıldırım qayalarla əhatə olunmuş, bir növ təbii qalaya bənzəyən yeri göstərdilər. Beləliklə, Şuşa qalasının tikilməsi haqqında qərar verildi. Qarabağ xanlığının yeni paytaxtı olan Şuşa şəhəri XVIII əsrin ortalarında meydana çıxsa da öz siyasi, iqtisadi və mədəni inkişafı ilə bir çox orta əsr Azərbaycan şəhərlərini qabaqlamağı bacardı [1, s.51].

Hesab edilir ki, Şuşa (Pənahabad) qalasının bünövrəsi 1750-ci ilin ikinci yarısında qoyulmuşdur. Belə ki, 1751-ci ildə əfqanlı Azad xan İrəvanı mühasirəyə alanda Şuşa qalası nəinki vardı, hətta orada "Pənahabad" adlı pul da kəsilirdi.

Qalanın tikintisi bitəndən sonra Şahbulaq qalasının sakinləri Şuşaya köçürüldü. Həmçinin, qonşu Azərbaycan xanlıqlarından da bura gələnlər olmuşdu. Şuşanın bəzi məhəllələrinin Təbrizli, Əylisli, Qazançalı, Köçərli, Culfalılar və s. adlandırılması, həmin məhəllələrdə yerləşənlərin müvafiq şəhər və kəndlərdən gəlməsini təsdiqləyir.

Ttarixi saxtalaşdırmağı adi hala çevirən erməni "alim"ləri Şuşa şəhərinin salınması haqqında danışarkən, yanlış məlumatlara əl atırlar. Məsələn, Şagen Mkrtiçyan "Dağlıq Qarabağ-memarlıq abidələri" adlı, elmdən daha çox yalanlardan ibarət olan olan cızma-qarasında göstərir ki, guya hələ VI əsrdə mövcud olan "Şikinar" ("Şuşa"-İ.Ə) qalasını knyaz Hovanes-Avan 1740-cı ildə yenidən bərpa etmişdir. Hətta 1803-cü ildə erməni könüllülərinin yardımı ilə ruslar Şuşa şəhərini tutmuş və xarici müdaxiləçilərin hakimiyyətinə son qoymuşlar. Heç bir tarixi mənbəyə istinad etməyən və elmi təsdiqini tapmayan, heç bir məntiqə sığmayan belə sayıqlamalar, sadəcə gülüş doğura bilər. Əslən erməni olan salnaməçi Mirzə Yusif Qarabağinin «Tarixi-safi» əsərinin "Şuşa qalasının binası, Qacar Məhəmmədhəsən xanın Şuşa qalasına hücumu və məqsədə çatmadan geri qayıtması" fəslində də Mkrtiçyanın yuxarıda qeyd olunan uydurmaları haqqında bir söz belə yoxdur. Mirzə Yusif Qarabaği qeyd edir ki, "Pənah xan özü gedib gözü ilə qalanın yerini görmüş və hər cəhətdən bəyənmişdi." [7, s.18].

*2.Qarabağa ermənilərin köçürülməsi və xristian məliklərin mənşəyinə dair.*

XV əsrdən başlayaraq Bizans hökmdarları erməniləri assimilyasiyaya uğratmağa başladı. Beləliklə, tarixən dövlət yarada bilməyən və yalnızca kilsələri ətrafında birləşən ermənilər tamamən yox olmaq təhlükəsi ilə üz-üzə gəlmişdilər. 1441-ci ildə isə erməni katolikosluğunun mərkəzi Kilikiya bölgəsindən əzəli Azərbaycan torpağı olan Üçkilsəyə (Eçmiədzinə) köçürüldü. Elə bu dövrdən etibarən ermənilər Göyçə gölü, Zəngəzur və Qarabağa dair əsassız iddialar irəli sürməyə başladılar. Məlumdur ki, ruspərəst erməni katolikosluğunun gücünü artırmaq məqsədi güdən çar hökuməti 1836-cı ildə müstəqil alban katalikosluğunu ləğv etdi. Bu dövrə, yəni XIX əsrin əvvəllərinə qədər Qarabağın köklü xristian əhalisi özünün alban kimliyini qorumuşdu və onlar ermənilərdən olduqca fərqlənirdi. Lakin 1804-1813-cü illər və 1826-1828-ci illər Rus-İran müharibələri zamanı Qarabağ əhalisinin bir qismi öldürülmüş, bir hissə isə öz yurdlarını tərk edərək Qacar və Osmanlı dövlətinin ərazilərinə getməyə məcbur edilmişdi. Çar Rusiyası Azərbaycanı işğal edib digər ölkələrdən yüz minlərlə ermənini Azərbaycana, o cümlədən Qarabağa köçürdükdən sonra isə Dağlıq Qarabağın erməniləşdirilməsi prosesi daha da sürətləndi. Rəqəmlər göstərir ki, 1823-cü ilə (II Rus-İran müharibəsinə) kimi Qarabağa köçürülənlərin hesabına əyalətdəki ermənilərin sayı artaraq 4366 ailəyə çatdırılmışdı.

Lakin Qarabağ bölgəsinin erməniləşdirilmə cəhdləri tarixi həqiqətləri gizlədə bilmədi: 1872—1873-cü illərdə Şuşa qəzasına məqalə həsr edən K.Nikitin qeyd edirdi ki, türklər bu ərazinin yerli sakinləridir, ermənilər isə bura XVII yüzilliyin sonundan köçməyə başlayıblar.

Erməni tədqiqatçı A.Papazyan isə, öz dövlətçiliyini uzun zaman öncə itirən ermənilərin ictimai-siyasi tarixində erməni-qriqoryan kilsəsinin böyük rol oynadığını bildirirdi. [16, s.68]. Yalançılığı adətə çevirmiş ermənilər Qarabağa dair iddialarında da din amilindən istifadə edərək, Qarabağın xristian məliklərinin erməni olduğunu və beləliklə, ermənilərin ata-babaların Qarabağda yaşadıqları, status sahibi olduqları fikrini irəli sürməyə başladılar. Bu gün də erməni "tarix"çiləri tərəfindən Qarabağ məlikliklərinin əhalisinin erməni olması haqqında uydurmalar tez-tez söylənir. Hətta məliklər açıq-aşkar formada tam şəkildə erməniləşdirilir və onların mənşəyinin əslində Qafqaz albanlarına aid olması tamamilə inkar olunur.

Bu mövzuda qafqazşünas Veliçkonun fikirləri önəmlidir: "Albaniya, yaxud erməni dilində "Ağvaniya" məsələsi çox maraqlıdır. Bu diyar ermənilərdən təsirlənərək xristianlığı qəbul etsə də, mənşəcə erməni olmayan xalqların yurdudur. XIX əsrin əvvəllərinədək Üçmiədzin katolikosu ilə rəqabətdə olan, bəzən isə tamamilə ondan asılılığı olmayan ayrıca Ağvan və ya Gəncəsər katolikosu da mövcud idi [13, s.66].

XVIII əsrin əvvəllərində Qarabağ məliklərinin də özlərini "aqvan"(alban) adlandırmaları erməni və onlarla həmfikir olan rus tarixçilərinin Qarabağın xristian məliklərinin mənşəcə erməni olduqları haqda iddialarının elmi əsasının olmadığını təsdiq edir [15, s.32].

Bəs ümumiyyətlə, "məlik" titulu necə meydana çıxmış və bu ad kimlərə verilmişdi? İlk olaraq qeyd edək ki, "Məlik" ərəb sözüdür və mənaca "mülk sahibi" deməkdir. Bu titul ilk olaraq XV əsrdə Qaraqoyunlu hökmdarı Cahan şah tərəfindən Həsən Cəlalın[3] Qarabağdakı nəslinə verilmişdir. Sonralar isə bu nəsil 5 ailəyə bölünür və onların hər birinin nümayəndəsi özünü "məlik" adlandırır.

XVII əsrin əvvəllərinə qədər Qarabağın dağlıq ərazisindəki xristian-alban məliklərinin hər birinin hakimiyyəti adətən sadəcə bir kəndə yayılırdı. Səfəvi hökmdarı şah I Abbasın dövründə isə "məlik" rütbəsi ilk dəfə hakim səviyyəsinə qaldırıldı. Beləcə zamanla Qarabağın dağlıq hissəsi beş hissəyə bölündü və hər bölgənin idarəsi bir məliyə tapşırıldı. Məlik vəfat edərsə, vəzifə oğluna keçirdi. Xırda mülk sahibi olan məliklər birbaşa Qarabağ xanına tabe olmalı, xanın ilxısını saxlamalı, bac-xərac, lazım gəldikdə isə xanlığın ordusuna adam verməli idilər. Hər bir dövlətdə müxtəlif ərazi bölgüləri olduğu kimi, Qarabağda da ayrı-ayrı məliklər bu inzibati qurumun içərisində əhalinin bir hissəsini təşkil edirdilər. Yəni, onlar əslində xalqın içərisində idilər.

Ana dilimizdə Qarabağ tarixi haqqında yazılan ilk əsər sayılan, müəllifinin Mirzə Adıgözəl bəy olduğu «Qarabağnamə"də "xəmsə"[4] adı ilə tanınan alban-xristian məlikləri və onların mənşəyi barədə olduqca maraqlı məlumatlar verilir.

Bu mahallardan biri "Dizaq" adlanırdı. Onun məliyi Məlik Yegan Loridən qaçıb gəlmiş, Nadir şahın əmrilə məliklik taxtına oturmuş və hörmət qazanmışdı. İkincisi – Vərəndə məlikliyidir. Vərəndə məliyi Şahnəzər daha qədim nəslə mənsub olduğundan çox etibar sahibi olmuşdur. Bu nəslin əsli Göyçədəndir. Digər məliklik isə məlikləri Həsən Cəlalın övladı olan "Xaçın"dır. Bu ailə sonralar məliklik mənsəbindən məhrum edilmiş, buna görə də bu mahalın müstəqil bir məliyi olmamışdır. Daha sonra isə "xınzırıstanlı məlik Mirzə xan özünün gözəl iradə və sədaqətli əqidəsinə görə, əbədi dövlət məmurlarının əmrilə məliklik

[3] Həsən Cəlal Dövlə- ermənilərin öz knyazları kimi göstərməyə cəhd etdikləri, Albaniya Mehranilər sülaləsinin nümayəndəsi, albanlar üçün Qansazar monastır kompleksini inşa etdirən xəlifə.
[4]Fars sözüdür, beşlik deməkdir.

sikkəsini gümüş kimi saf olan adına kəsdirdi”. Özündən sonra da oğlu Məlik Allahverdi və nəvəsi Məlik Qəhrəman məliklik bayrağının sahibi oldular.

Dördüncü məliklik olan Çiləbörd mahalının məliyi Allahqulu olmuşdur. Onun ata-babaları Maqavizdən gələrək olduqca çətin yolu olan Cermux[5] qalasını özlərinə məskən, sığınacaq etmişlər. Beşinci – Talış mahalıdır. Məlikləri isə Məlik Usubdur. Əsli Şirvandan gəlmədir və onların bir çoxu “məlik” titulunu almışdır. [4, s.46-47]

Göründüyü kimi yalnız “Xaçın” məliyi yerli idi. “Qarabağnamə”lərin müəllifləri də bu faktı təsdiqləyir. Digər məliklər isə Qarabağa sonradan köçsələr də, heç birinin ermənilərlə genetik bağlılığı yoxdur. Onlar əslən xristian-albanlar, hun-qıpçaqlar, yəni, türk tayfaları idi. Hətta, Cənubi Azərbaycan ermənisi Mirzə Yusif Qarabaği (Nersesov) də məliklərin Qarabağa gəlmə olduğunu qeyd edirdi. Erməni müəllifi P.T.Arutyunyan da Xaçın məlikliyindən başqa digər məlikliklərin əsasını qoyan şəxslərin Qarabağa gəlmə olduqlarını etiraf edərək yazırdı: “Qarabağın xristian məliklərindən təkcə Xaçın məlikləri – Həsən Cəlal nəsli tam yerli mənşəli idi.” [9, s. 38.]

Dövrün mənbələrindən hesab edilən “Təzkirət əl-Muluk”da Qarabağ məliklərinin adları çəkilmir. Bunu belə izah etmək olar ki, “…bu məlikliklər dövlətə nisbətdə xırda feodal mülkləri idilər, həmçinin məlikliklər XVII-XVIII əsrlərdə formalaşmışdılar və XVIII əsrin əvvəllərində onların irsi mülkiyyət statusları hələ tanınmırdı” [12, s.431].

Azərbaycanlı tarixşünasların son tədqiqatlarında Qarabağ məliklərinin tamamən erməniləşdirilməsinin saxta, uydurma olması arxiv sənədlərlə də bir daha sübut edilmişdir. Belə ki, 1723-cü ilin martında məliklərdən dördünün – İsay, Şirvan, Sergey və İosifin yaxınlıqdakı dağıdıcı hücumlardan qorunmaq məqsədilə çar I Pyotra göndərdikləri məktubda onlar özlərini «Alban Ərşakilərinin varisləri” adlandırırdılar [3, s.32-33].

Burdan da bir daha aydın olur ki, o zaman Azərbaycanda yaşayan xristianlar özlərini erməni yox, alban adlandırmışlar və mənşə etibarilə türk olduqlarını heç vaxt unutmamışdılar. Lakin məktubda qeyd olunan “alban türkləri” ifadəsi, sonradan rus dilinə tərcümə olunmuş variantda “alban müsəlmanları” birləşməsi ilə əvəzlənmişdir.

Ermənilər yazırlar ki, guya Qarabağın “erməni” məlikləri XVIII əsrin əvvəllərində Rusiyaya meyl edir və çarların regiondakı siyasətini dəstəkləyirdilər. Ancaq dövrün rus rəsmi sənədləri bunu təkzib edir. Belə ki, 1724-cü ilə məxsus məktublarda göstərilir ki, məliklərdən “Çiləbördlü Sarkis qızılbaşların, Gülüstanlı Esai osmanlıların, məlik Bağır qızılbaşların tərəfini saxlayır” [16, s.79].

Tarixi mənbələr və rəsmi sənədlər sübut edir ki, Qarabağa gəlmə erməniləri çıxmaq şərti ilə bütün Qafqaz xalqları ilə eyni kökdən olan yerli xristian alban türkləri digər qafqazlılardan sadəcə dini baxışları və xristianlıq ənənələri ilə fərqlənirdilər. İstər Qarabağa sonradan gələn dörd məliklik, istərsə də yerli albanların nəslindən olan “Xaçın” məlikliyi çar fərmanından sonra qriqoryanlığı məcburən qəbul etsələr də, onlar sadəcə məzhəb cəhətdən ermənilərlə bir təriqətdəndir, ancaq soykök baxımından qətiyyən erməni deyildilər. Sırf sonradan qriqoryanlaşdırıldıqlarına görə də ermənilər xristian məlikliklərini öz adlarına çıxırlar.

*3. Erməni saxtakarlığı tarixi mənbələrdə.*

Tarix boyu erməni müəllifləri və onların həmfikirləri Qarabağ ərazisində fəaliyyət göstərən beş xristian məlikliyinin rolunu şişirtməyə, onları sanki “erməni milli dövlətçiliyinin nümunəsi” kimi təqdim etməyə çalışmışlar. Erməni tarixçisi A.R.İoannisyan Nadir şahın zamanında Qarabağda mövcud olan xristian məliklərini “faktiki olaraq müstəqil hakim”, “hərbi qüvvəyə malik knyazlar” kimi təsvir etmişdir. [5,s.15- 16]. Hətta erməni romanist Raffi Qarabağın erməni məliklərinin hakimiyyəti altında olduğu fikrini irəli sürmüşdü [11, s. 44].

[5]Çiləbörd qalasının qısa adı.

XVIII əsrdə erməni katolikosu olan İrəvanlı Simeon da "Cambr" adlı kitabında eyni saxtakarlıqla "Xəmsə məlikləri"ni erməni kimi təqdim edir [14, s. 159].

Bunlardan əlavə 1780-ci ildə Cənubi Qafqaza yürüşə hazırlaşan, Azərbaycan, xüsusən də Qarabağ və İrəvana gedən yollar və s. barədə geniş məlumat toplayan V.A.Suvorovun Q.A.Potyomkinə yazdığı 1780-ci il 15 fevral tarixli raportuna əlavə edilmiş sənəddə, Həştərxana gələn Qarabağ məliklərindən olan Adəmlə Usubun Qarabağ və İrəvan xanlığında baş verən hadisələr haqqında verdiyi məlumatları qeyd edilmişdi. M.Q.Nersisyanın ümumi redaktəsi ilə tərtib edilən "Erməni-rus əlaqələri"nin IV cildində nəşr olunan bu sənəddə heç bir dəfə də olsun "erməni məliyi" birləşməsi işlənmədiyi halda, A.R.İoannisyan həmin sənədi şərh edən zaman məlikləri erməni adlandırmışdır [10, s. 144-145]. Qeyd olunan zamanda həmin ərazilərin əhalisinin erməni olduğunu "sübuta yetirməyə" çalışan müəllif hətta dövrün rəsmi sənədlərini də saxtalaşdırmaqdan çəkinməmişdir.

Lakin tarixi mənbələrdəki məlumatlar erməni "mütəfəkkir"lərinin bütün yalanlarını tam şəkildə təkzib edir. Buna görə də onlar mənbələri təhrif edərək məlumatları özlərinə uyğunlaşdıraraq rəy bildirirlər. Belə ki, XIII əsrdə Gəncədə yaşayan alban tarixçi Kirakosun "Tarix" adlı əsəri 1976-cı ildə "Ermənistan tarixi" adı altında, rus dilində çap olunmuşdur. Halbuki müəllif əsərində erməniləri və albanları fərqləndirərək albanları "Qarabağın ən qədim sakinləri" adlandırırdı.

Bundan əlavə, 1781-ci il sentyabr 2-də Qarabağ məliklərinin II Yekaterinaya ünvanlanan məktubunun erməni dilində olan nüsxəsində məliklər özləri barədə "biz Arşaki və Alban taxt-tacının çarları nəslinə mənsubuq" cümləsini qeyd etmişlər. Erməni "tarixçi"ləri bu sənədi rus dilində təqdim edəndə həmin ifadəni saxtalaşdıraraq "biz erməni rəislərinin nəslindənik" cümləsi ilə əvəz etmişdi [8].

Mənbələrdə Qarabağın xristian əhalisi haqqında danışılarkən onlar "erməni" kimi deyil, "qeyri-müsəlman" və ya "xristian" kimi xatırlanırlar. Çünki burada yaşayan xristian əhali elat türkləri kimi yaylağa-qışlağa gedir və öz aralarında türkcə danışırdılar. Onların ermənicə danışması barəsində heç bir məlumat yoxdur. Həmçinin, Qarabağın yer-yurd adlarının da türk dilində olması buna sübutdur.

XIX əsrdə Azərbaycanın şimal torpaqları Rusiya tərəfindən işğal edildikdən sonra isə xristian əhali sorğu-sualsız "erməni" kimi qeyd olundu və qeyri-müsəlman əhalinin yerində yerləşdirilən ermənilər "qədimlik statusu" əldə etmiş oldular. XIX əsrə aid statistik sənədlərdə bəzi xristian-türk elatlarının "erməni elatı" kimi qeyd olunmasına rast gəlinir.

## *Nəticə*

Bir daha əmin oluruq ki, ermənilər nə qədər saxtakarlığa əl ataraq, hər fürsətdə türk olduqlarını dilə gətirən Qarabağın xristian-alban məliklərini özününküləşdirməyə cəhd etsələr də, erməni tarixçilərinin qələmə aldığı, düzgünlüyünü isbat etməyə çalışdıqları uydurmalar tarixi həqiqəti - Qarabağın əzəli və əbədi Azərbaycan torpağı olduğu reallığını heç vaxt dəyişə bilməyib və dəyişə bilməyəcək.

## ƏDƏBİYYAT


1. Axundov N. Qarabağ salnamələri. Bakı, Yazıçı, 1989, 232 s.
2. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). Z.M.Bünyadovun və Y.B.Yusifovun redaktəsilə, I cild, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994, 628 s.
3. Hacıyeva Z. Qarabağ xanlığı: sosial-iqtisadi münasibətlər və dövlət quruluşu. Bakı: "Təhsil", 2007, 254 səh.
4. Hüseynov Y. Qarabağ tarixi mənbələrdə. Bakı: "Şuşa" nəşriyyatı, 2012. – 248 s.
5. İoannisyan A. Rossiya i Armyanskoe osvoboditelnoe dvijenie v 80-x q. XVIII veke, İzd-vo AN Arm. SSR, Yerevan 1947.

6. Qarabaği M. C. C. Qarabağ tarixi // Qarabağnamələr. Birinci kitab, tərtib edəni və çapa hazırlayanı t.e.n. A.Fərzəliyev. Bakı, Yazıçı, 1989, s.104-148.
7. Qarabaği M. Y. Tarixi-safi // Qarabağnamələr. İkinci kitab, tərtib edəni və çapa hazırlayanı professor N.Axundov. Bakı, Yazıçı, 1991, s.6-91.
8. Mahmudov Y., Najafli G., The resettlement of Armenians to the lands of North Azerbaijan – the irrefutable truth of history, Turkhan, Baku 2020, p. 15.
9. Mustafayev T. "Qarabağ (Gəncə) bəylərbəyliyi XVIII əsrin I qərinəsində", Azərb. EA Xəbərləri, tarix, fəls. və hüquq seriyası, Bakı 1988, №3, s. 37.
10. Nəcəfli G. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri, Nurlan, Bakı 2007, s. 144-145.
11. Raffi, Melikstva Xamsı (1600-1827): Materialı dlya novoy armyanskoy istorii (Per. s arm. L.Kazaryana; Predisl. B. Ulubabyana), Nairi, Yerevan 1991.
12. Sadıqova A. Pənahəli xan Cavanşir tərəfindən Qarabağın Alban-Xristian məliklərinin mərkəzi hakimiyyətə tabe edilməsi. Akademik Tarih ve Düşünce Dergisi. Cilt:8 / Sayı:1. Mart, 2021. Səh. 426-443
13. Veliçko V. Kavkaz. Russkoe delo i mejduplemennıe voprosı (SPb., 1904), Elm, Baku 1990, s. 66.
14. Yerevantsi S. Cambr. Pamyatnaya kniqa, zertsalo i sbornik vsex obstoyatelstv Svyatoqo prestola Eçmiadzina i okrestnıx monastırey, izd. Vostoçnoy literaturı, Moskva 1958,
15. Армяно-русские отношения в первой третий XVIII века. Т.2, ч.2. Ереван, 1967, с.32;
16. Мамедова Г.Н. К вопросу о христианских меликах и меликствах Северного Азербайджана в XVIII в. //"Кюрек- чайский договор 200". Баку. "Тахсил". 2005, с.67-82.

УДК 94(479.24)

*Илаха Ариф Асадзаде*
*Гянджинское отделение НАНА*

## МЕЛИКИ «ХАМСЕ» КАРАБАХА: СЛЕДУЮЩАЯ ЦЕЛЬ АРМЯНСКОЙ ПОДДЕЛКИ

*РЕЗЮМЕ*

*Ключевые слова*: Карабахское ханство, мелики «Хамсе», христианско-албанские мелики, арменизация, армянская подделка

В статье рассматриваются обстоятельства образования Карабахского ханства, расселение армян на территории ханства и происхождение меликов, действовавших в Карабахе. Также затрагиваются такие вопросы, как искажение армянскими историками генеалогии христианских меликов, которые всегда называли себя «албанцами» в официальных документах, и создание вымышленных идей путем изменения даже исторических источников в свою пользу.

UDC 94 (479.24)

*Ilaha Arif Asadzadeh*
*Ganja Branch of ANAS*

KARABAKH'S "KHAMSA" MELİKS:
THE NEXT TARGET OF ARMENIAN FORGERY
*SUMMARY*

*Key words:* Karabakh khanate, "Khamsa" meliks, christian-albanian meliks, armenianization, armenian forgery

The article deals with the circumstances of Karabakh Khanate formation, the settlement of Armenians in the territory of the Khanate, and the origin of the meliks operating in Karabakh. It also touches upon issues such as the distortion of the genealogy of the Christian meliks, who always called themselves "Albanian" in official documents, by Armenian historians, and the creation of fictional ideas by changing even historical sources to their advantage.

***Daxil oldu: 11.02.2025-ci il***